# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

## SƏRƏNCAM

**№ 381s**

*Bakı şəhəri, 23 noyabr 2011-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın 6.5-ci bəndinə əsasən, Bakı Metropoliteninin Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmış təklifini nəzərə alaraq:

1. Bakı şəhəri, Binəqədi rayonu, S.S.Axundov küçəsində tikilən, Bakı Metropoliteninin III növbəsinin Şimal sahəsinə daxil olan, "Dərnəgül" stansiyasının yerüstü sahəsində salınmış parkda yerləşən, bu sərəncamın əlavəsində göstərilən siyahı üzrə obyektlər və qurğular Bakı Metropoliteninin balansından Bakı Şəhər İcra Hakimiyyətinin balansına verilsin.

2. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Bakı Şəhər İcra Hakimiyyəti və Bakı Metropoliteni bu sərəncamdan irəli gələn məsələləri müvafiq qaydada həll etsinlər.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin
2011-ci il "23" noyabr tarixli
381s nömrəli sərəncamına
**əlavə**

**Bakı Metropoliteninin balansından Bakı Şəhər İcra Hakimiyyətinin balansına verilən Bakı şəhəri, Binəqədi rayonu, S.S.Axundov küçəsində tikilən, Bakı Metropoliteninin III növbəsinin Şimal sahəsinə daxil olan, "Dərnəgül" stansiyasının yerüstü sahəsində salınmış parkda yerləşən obyektlərin və qurğuların**

**SİYAHISI**

| Sıra №-si | Obyektin adı | Ölçü vahidi | Həcmi |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| 1. | Yağış suları üçün kanalizasiya xətti | p.m | 1350 |
| 2. | Su xətti | p.m | 1100 |
| 3. | Əkmə qazon | kv.m | 41800 |
| 4. | Rulon qazon | kv.m | 240 |
| 5. | Həmişəyaşıl ağaclar | ədəd | 1300 |
| 6. | Zibil qabları | ədəd | 30 |
| 7. | Oturacaqlar | ədəd | 32 |
| 8. | Transformator məntəqəsi (avadanlıqlarla) | dəst | 1 |
| 9. | İşıqlandırma dirəkləri | ədəd | 105 |
| 10. | Xarici elektrik təchizatı üçün kabel xətti | m | 1305 |
| 11. | Üzlənmiş divarlar | kv.m | 1900 |
| 12. | Üzlənmiş döşəmələr | kv.m | 14200 |
| 13. | Döşənmiş bordür daşları | p.m | 3600 |
| 14. | Asfalt örtüyü | kv.m | 27000 |
| 15. | Yolqırağı bordür daşları | p.m | 4200 |

**Aparatın rəhbəri** **Ağa-Bala Hacıyev**